# "COP29-un Bakıda keçirilməsi ölkənizin yüksək beynəlxalq nüfuzundan xəbər verir"

Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) davam edir. Konfransın Azərbaycanda keçirilməsi həm ölkəmiz, həm də ümumilikdə dünya üçün əhəmiyyətli nəticələr vəd edir.

COP29 çərçivəsində iqlim dəyişikliklərinə qarşı mübarizə üzrə potensial həll variantları nümayiş olunur, fikir və təcrübə mübadiləsi aparılır, eləcə də müzakirələr, panel sessiyaları, sərgilər və digər interaktiv tədbirlər keçirilir. Bu tədbirlər həm yerli, həm də beynəlxalq auditoriya tərəfindən böyük maraqla qarşılanır. Bu aspektdən "yaşıl zona" xüsusilə diqqət cəlb edir. Müxtəlif maraqlı tərəflərin bir araya gəldiyi, iqlim dəyişmələri ilə bağlı müzakirələrin aparıldığı və ekoloji çağırışlarla bağlı innovativ həllərin nümayiş olunduğu məkan kimi "yaşıl zona"ya ziyarətçilərin marağı böyükdür.

"Yaşıl zona" sanki dünya fonunda qlobus rolunu oynayır. Dünyanın elə bir ölkəsi yoxdur ki, burada onun vətəndaşına rast gəlməyəsən. Öz mədəniyyətlərini, milli ornamentlərini geyimlərində əks etdirən müxtəlif xalqların nümayəndələri ilə söhbətləşərkən sanki mədəniyyətdən-mədəniyyətə, ölkədən-ölkəyə səyahət edirsən. Onların COP29, Azərbaycan və xalqımız haqqında xoş fikirləri isə, əlbəttə ki, məmnunluq doğurur.

**Sadık YÜREK:**



- İki həftədən çoxdur ki, Bakıdayam. Anamla birlikdə Türkiyənin Mersin şəhərindən gəlmişəm. Bakıda belə bir qlobal tədbirin keçiriləcəyini eşitmişdim. Buraya gəlməyə bilməzdim. COP29 yüksək səviyyədə təşkil olunub. İnşaat mühəndisi olduğum üçün Bakıdakı binaların memarlıq üslubu xüsusilə diqqətimi cəlb etdi. Həm gözəl tikilmiş, həm də yüksək səviyyədə restovrasiya edilmiş binalar gördüm. Hər biri ayrı-ayrı diqqətimi çəkdi. İçərişəhəri də gəzdim. Bakı, Azərbaycan gözlədiyimdən daha gözəldir. Buna Qarabağda bir daha şahid oldum. Azərbaycana gəlmişkən Qarabağa getməmək günah olardı. Şuşa, Laçın, Ağdam, Xocalı və Xankəndini gəzdim. Bu torpaqları gəzərkən çox duyğulandım. Türk olduğumuz üçün böyük qürur duydum. Yeməkləri, şirniyyatları, xüsusilə şah plovu çox bəyəndim. Mətbəxlərimiz həm bənzərdir, həm də fərqli və dadlıdır.

**Aditi GHOSH:**



- Hindistandan gəlmişəm. Tədbirin təşkilatçılığı yüksək səviyyədədir. O qədər maraqlıdır ki, bütün pavilyonları görmək, hər birində vaxt keçirmək istəyirəm. Pavilyonlarda mütəmadi tədbirlər keçirilir. Bütün günü pavilyonlar arasında gəzirəm. Tədbirin heç bir maraqlı anını qaçırmaq istəmirəm. Mədəniyyətlərimizin bir-birinə bənzədiyini düşünürəm. Yeməklərinizin, ədviyyatlarınızın müxtəlifliyi də diqqətimi çəkdi. Milli yeməklərinizin dadına baxdım, yarpaq dolmasını, pitini, plov və kabablarınızı çox sevdim. Hətta bir neçə yemək və şirniyyatın reseptini də götürdüm. Azərbaycana gəlmək mənim üçün unudulmaz bir xatirə oldu.

**Tunji John ASAOLU:**



- COP29 haqqında fikirlərim müsbətdir. Mən və birlikdə gəldiyim dostlarım da eyni fikirdədirlər. Bu platforma qlobal iqlim dəyişikliklərinin həlli istiqamətində müvafiq addımların atılması üçün vacibdir. Ümumi problemlərin həlli də ümumi qərarlar əsasında olmalıdır. Konfransda bəşəriyyət, insanlıq üçün çox aktual məsələlər müzakirə edilir. Nigeriya da qlobal iqlim dəyişikliklərindən əziyyət çəkən ölkələr sırasındadır. Azərbaycanın dünyada artan nüfuzu və iqtisadi gücü ilə fəxr edə bilərsiniz. Ölkəniz dünyada sülhün, əmin-amanlığın əsl ünvanı kimi tanınmaqdadır.

**Gulnaz MUSABEKOVA:**



- Qazaxıstan Ftiziopulmanoloqlar Assosiasiyasının nümayəndəsi olaraq COP29-a dəvət edilmişik. Burada pavilyonları gəzdik. Diqqətimizi Azərbaycan pavilyonu daha çox çəkdi. Burada əl işləri marağımıza səbəb oldu. Əl işlərində olan rəng çalarları, incə naxışlar çox xoşumuza gəldi. Biz qazaxlar əl işlərinə, qədim adət-ənənələrin davam etdirilməsinə xüsusi önəm veririk. Bu xüsusiyyətin sizin xalqda da olduğunu görmək bizi çox təsirləndirdi. Əslində, xalqlarımız arasında mədəniyyət sahəsində bir çox oxşarlıqlar var. Bu bizi bir-birimizə daha da yaxınlaşdırır, doğmalaşdırır. Azərbaycana ilk dəfə gəlsəm də, burada özümü heç yad hiss eləmədim. Ümid edirəm ki, belə faydalı tədbirlərin sayı daha da artacaq.

**Mehdi AYBASOV:**



- Konfransın Azərbaycanda keçirilməsi olduqca əhəmiyyətli hadisədir. COP29-un Bakıda keçirilməsi ölkənizin yüksək beynəlxalq nüfuzundan xəbər verir. Bu o deməkdir ki, Azərbaycanı etibarlı tərəfdaş kimi qəbul edir və güvənirlər. Tədbirin Azərbaycanda keçiriləcəyini eşidən kimi iştirak etmək qərarına gəldim. Moskvadan gəlirəm. Ümid edirəm ki, "yaşıl gələcək" naminə atılan addımlar öz bəhrəsini verəcək. Əslində, iqlim dəyişikliklərinin qarşısını almaq üçün görülən tədbirlərin nəticəsini yalnız dövlət, qurum və təşkilatlardan gözləmək doğru deyil. Bu məsələdə hər birimiz məsuliyyətimizi dərk edib ona uyğun addımlar atmalıyıq. Təbii ki, elektrikli nəqliyyat vasitələrinə keçid, tullantıların təkrar emalı kimi tədbirlər geniş miqyasda öz töhfəsini verəcək. Amma əgər biz vətəndaşlar da bu qədər məlumatlandırılmağa rəğmən yenə də plastik məhsullardan istifadə etsək, zərərli tullantıları təbiətə atsaq, çox da böyük nailiyyətlər əldə edəcəyimizi düşünmürəm.

**Zongxu XİE:**



- Süni intellektin rəqəmsal iqtisadiyyata inteqrasiyası ilə məşğul oluram. Düşünürəm ki, COP29-un ölkənizdə keçirilməsi Çin ilə əməkdaşlıq üçün yeni imkanlar yaradacaq. İnanmıram ki, tədbirdə iştirak edən hər hansı bir ölkənin təmsilçisi geri döndükdən sonra Azərbaycan haqqında xoş fikirlər söyləməsin. COP29-da iştirak etməkdən olduqca məmnunam. Bakı Şərq və Avropa memarlığının ən gözəl ornamentlərini özündə birləşdirməyi ilə təəccübümə səbəb oldu. Burada olduğumuz müddətdə hər hansı neqativ halla üzləşmədik. Bu, zənnimcə, ölkənizin beynəlxalq tədbirlərə evsahibliyi etmək təcrübəsinin olduğu ilə əlaqədardır.

**Rachel SYRİNGA:**



- COP29 olduqca önəmli tədbirdir. ABŞ-dən bu tədbirdə iştirak etmək üçün gəlmişəm. Tədbir keçirilən əraziləri, buradakı pavilyonları gəzərkən təşkilatçılığa baxıb əminliklə deyə bilərəm ki, bu qədər uzun yol qət edərək Azərbaycana gəlməyə dəyər. Hər şey yüksək səviyyədə, peşəkarlıqla təşkil edilib. Bu, ölkənizə ilk ziyarətimdir. İstər şəhər, istərsə də insanları məndə çox xoş təəssüratlar yaratdı. Düz, Bakının belə gözəl, səliqəli, inkişaf etmiş şəhər olduğunu bilmirdim. Yaxşı mənada təəccübləndim. Könüllülərə də ayrıca təşəkkür edirəm. Bizə olduqca dəstək oldular. Köməyə ehtiyacımız olan hər an yardıma gəlir, dəstək verirlər. Ölkənizdən yalnız xoş təəssüratlarla ayrılacam.

**Maksim YELİZAROV:**



- COP29 haqqında rəylərim yalnız müsbətdir. Mənimlə birlikdə Sibirdən gələn dostlarım eyni fikirdədirlər. Görünür ki, tədbir və təşkilatçılıq üzərində səylə çalışılıb, hər bir detal düşünülüb. Artıq bir neçə gündür ki, konfransda iştirak edirik. Ölkənizin bu təşəbbüsünü alqışlayırıq. Qlobal iqlim dəyişiklikləri ilə mübarizədə həmrəylik nümayişi çox önəmlidir. COP29-un da şüarı məhz "yaşıl dünya" naminə həmrəylikdir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 20 noyabr (№ 255).- S.10.